UOT- 341.24.047

# XƏZƏRİN STATUSU ZİRVƏ GÖRÜŞLƏRİNİN MÜZAKİRƏSİNDƏ (AŞQABAD SAMMİTİ)

**S.S.HƏSƏNOV**
***AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***
***Senan hesenov@hotmail***

*1998-ci ilin iyulunda "Qazaxıstanla Rusiya arasında yeraltı sərvətlər üzrə suveren hüquqların həyata keçirilməsi məqsədilə Xəzərin şimal hissəsində dəniz dibinin bölünməsi haqqında" saziş imzalanmış, 2002-ci ilin mayında isə həmin sazişə müvafiq protokol qüvvəyə minmişdir. 2001-ci il noyabrın 29-da və 2003-cü il fevralın 27-də isə Qazaxıstanla Azərbaycan arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında saziş və ona müvafiq protokol imzalandı. Daha sonra 2003-cü il mayın 14-də Qazaxıstan Azərbaycan və Rusiya arasında Xəzər dənizinin həmsərhəd hissələrinin bölünməsi xəttinin qovuşma nöqtəsinə dair saziş rəsmiləşdirilmişdir. Nəhayət, Xəzəryanı dövlətlər 2003-cü ilin noyabrında Xəzərdə dəniz mühitinin qorunması üzrə Çərçivə Konvensiyasını imzaladılar. Beləliklə də, Xəzəryanı dövlətlər məsələnin həllinə dair mövcud təcrübələri və normaları özündə birləşdirən ilkin konvensiyanın ortaya qoyulmasına və onun əsasında dərin müzakirələrə başlamağa nail oldular.*

**Açar sözlər**: enerji, status, siyasət, maraqlar, əməkdaşlıq, təhlükəsizlik, strategiya

Xəzərin statusunun həllinə dair bütün görüşlərdə hər yekun qərarın qəbul edilməsinə cəhd göstərilsə də bu, mümkün olmamış məsələnin Zirvə görüşləri səviyyəsində müzakirəsinə zərurət yaranmış, həll variantının dərindən müzakirəsi həyata keçirmişdir. Bu danışıqlar içərisində 2002-ci il aprel ayının 22-23-də Aşqabadda keçirilmiş toplantı tarixi əhəmiyyətə malik idi. Sammit iki əsas cəhəti ilə diqqəti cəlb edir. Əvvəla, ilk dəfə idi ki, Xəzəryanı ölkələrin dövlət başçıları səviyyəsində bütövlükdə bu məsələ müzakirəyə çıxarılmışdır. İkincisi, Xəzərin statusu digər problemlərlə yanaşı rəsmi görüşlərdə müzakirə obyekti olduğu halda, ilk dəfə Aşqabad sammiti Xəzərin statusu haqqında bütün sahilyanı ölkə başçılarının və rəsmi nümayəndələrin qarşılıqlı kompromis axtarışını özündə əks etdirmişdir. Azərbaycan sammitə öz yığcam və konkret mövqeyi ilə gəlmişdi. Bu mövqeni Azərbaycan prezidenti Heydər Əliyev öz dolğun çıxışı ilə bütün ölkələrin rəhbərlərinə bəyan etmişdir ki, "Xəzər dənizinin hüquqi statusu məsələsinin Xəzəryanı dövlətlər arasında həlli onların suveren hüquqlarına hörmət, qarşılıqlı surətdə faydalı tərəfdaşlıq ruhunda, dinc vasitələrlə həyata keçirilməlidir" (5). Digər Xəzəryanı dövlət

başçıları da ilk dəfə bu səviyyədə öz dövlətlərinin mövqeyini ifadə etmiş, əsas detallar müzakirəyə çıxarılmışdır. Nəhayət, hansı tərəfin nə istədiyini və buna necə nail olmağın yollarını ilk dəfə qarşılıqlı şəkildə müzakirəyə çıxardılar. Zirvə görüşündə Azərbaycan, Rusiya və Qazaxıstan dövlətlərinin rəsmiləşmiş mövqeyi problemin həllində optimal variant kimi göstərildi. Türkmənistan və İran dövlətləri isə daha kompromis mövqe tutdular. Türkmənistan tərəfi mübahisəli saydığı yataqların məsafəcə öz ölkəsinə yaxınlığını əsaslandıraraq onun xüsusi mülkiyyəti olması haqqında irəli sürdüyü ideyalar, digər sahilyanı ölkələr tərəfindən qeyri-qənaətbəxş qarşılanmışdır. Sahilyanı ölkələr yaxşı başa düşürdü ki, dünya praktikasında yataqlar və su əraziləri məsafəyə görə deyil, su hövzələrinin yerləşmə istiqamətinə əsasən, quru ərazisinin ən son nöqtəsindən hesablanır. Lakin Azərbaycan tərəfi bu məsələnin yenə də danışıqlar yolu ilə həllinə öz razılığını bildirdi. İran tərəfi isə, 1921, 1940-cı illər müqaviləsini əsas hüquqi sənəd hesab etsə də, status məsələsi həll olunana qədər təklif etdiyi 20%-lik ərazidə fəaliyyət göstərməyə etdiyi cəhdin əsassız olduğunu özü də başa düşürdü. Ümumiyyətlə isə, İran prezidenti bu toplantıda status məsələsində lazımi kompromislərə getməyə daha çox yaxınlaşmışdı. Diqqəti çəkən məqam odur ki, İran əvvəllər olduğu kimi neft kəşfiyyatında və regiondan enerji daşınmasında, dünya bazarlarına çıxarılmasında maraqlı olduğunu və bu işə fəal qarışmaq istədiyini bəyan etdi. İran prezidenti hətta təkid edirdi ki, prosesə ölkəsinin cəlb edilməsi həm İran üçün böyük əhəmiyyətə malikdir, həm də digər ölkələr üçün ucuz və sərfəlidir. Göründüyü kimi, İranın mövqeyində əsaslı dəyişikliklər baş vermiş, ancaq Türkmənistanla mübahisəli yataqlar neçə illər olduğu kimi yenə öz konkret həllini tapmamışdır. Zirvə görüşündəki qapalı iclasda, aprelin 22-də ekspertlər qrupunun hazırladığı bəyannamə də, əsasən buna görə qəbul olunmamışdır. Əslində, Aşqabad görüşü belə mövqe ayrılıqlarının olduğu üçün çox ağır keçmişdir. Təkcə həmin bəyannamə üzərində gedən gərgin iş buna sübut idi. Aprelin 22-dən-23-ə keçən gecə sabaha qədər ekspertlər qrupu bu bəyannamə üzərində yenidən işləmiş, 5 saat çəkən qapalı görüşdə dövlət başçıları bu barədə yenə də qəti fikrə gələ bilməmişdir. Hamı tərəfindən razılaşdırılacaq variantın tapılacağı zaman dövlətlərin bu bəyannaməni imzalayacağı qənaətinə gəlmişdilər. Ancaq buna baxmayaraq, Xəzərin statusunun həlli problemi bütün ölkələr üçün mühüm əhəmiyyətə malik olduğuna görə dövlət başçılarının məsələnin müzakirəsi ilə bağlı bir araya gəlmələri zərurəti gələcək hüquqi sənədin qəbul edilməsi baxımından mühüm addım hesab edilməlidir. Vladimir Putin zirvə görüşünü belə qiymətləndirirdi: «Dövlət başçıları Xəzər regionunda qarşılıqlı fəaliyyətin bütün cəhətlərini tarixdə ilk dəfə olaraq, təfərrüatı ilə müzakirə etdilər» (5). Daha önəmli cəhət sahilyanı ölkələrin bir-birinə güc tətbiq etməməsi haqqında yekdil razılığa gəlmələri idi. Qazaxıstan prezidenti N.Nazarbayev bu haqda deyirdi: «Xəzər dənizinin hüquqi statusu haqqında çoxdan davam edən danışıqlar sübut edir ki, qarşılıqlı anlaşma, tərəflərin maraqlarının razılaşdırılması obyektiv və subyektiv xarakterli çətinliklərlə

üzləşmişdir. Lakin belə danışıqlara sərf edilən vaxt əbəs olmamışdır. Ən əsası odur ki, Xəzəryanı ölkələrin iradəsi, Xəzər regionunda siyasi sabitliyin, sülhün, karbohidrogen ehtiyatlarının kəşfi, çəkişmələr, həlli mümkün olmayan münaqişələrə gətirib çıxarmamışdır» (4, 19). N.Nazarbayev Aral dənizinin faciəli ekoloji vəziyyətinin Xəzərdə də baş verməməsini ölkələr qarşısında ən vacib məsələlərdən sayırdı. Odur ki, görüşdə Türkmənistan Prezidenti Saparmurad Niyazov regional əməkdaşlığı genişləndirmək üçün beş dövlətin daimi fəaliyyət göstərən şurasının yaradılmasını, Rusiya Prezidenti Vladimir Putin isə Xəzərin daimi monitorinqini keçirmək üçün beştərəfli hökumətlərarası mərkəzin təşkil edilməsi təklifini irəli sürmuşdür. Azərbaycan tərəfi Xəzər dənizinin sahilyanı dövlətlər arasında sektorlara bölünməsinin orta xətt prinsipi nəzərə alınmaqla, bu dənizdə təşəkkül tapmış təcrübə, beynəlxalq hüququn ümumtanınmış prinsipləri və sahilyanı dövlətlərin Xəzər dənizində suveren hüquqlarının tətbiq olunması əsasında həyata keçirilməsinin tərəfdar olduğunu yenə də əsaslandırmışdır. Toplantıdan sonra keçirilən mətbuat konfransında çıxış edən prezidentlər sammitin ilk növbədə hər bir dövlətin mövqeyinin açıqlanması üçün əlverişli imkan yaratdığını bildirmişlər.

Xəzərin statusunun müzakirəsi elə mərhələdə idi ki, artıq burada nə qərb ölkələri ilə əməkdaşlıq nə də beynəlxalq layihələrin həyata kecirilməsi yolunda mane törədəcək amillər müzakirə mövzusu deyildir. Azərbaycan bütün bunların əhəmiyyətini, bölgədəki müsbət nəticələrini region ölkələrinə anlatmışdır. Dünya bu strategiyanın bütün ölkələr üçün əhəmiyyət kəsb etdiyi yeganə fikri müdafiə edirdi. Xəzərin statusunun həlli yolunda isə əslində mühüm baza prinsipləri və sənədlər öz həllini tapmışdır. Bu mərhələdə dövlətlər yalnız bir əsas məsələnin - Xəzərin statusunun tənzimlənməsi üçün qərarın qəbul edilməsinə can atmış, bir sıra kompromislərə razılaşmışlar. Hesab edirik bu kompromislərə cəhd dövlətlərin regionda böyük layihələrə qoşulmağın vacibliyini başa düşməsi ilə də bağlı idi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu görüşdə demişdir: «Yeni şəraitdə Xəzər dənizinin hüquqi statusunu müəyyənləşdirmək zərurəti yaranmışdır. Bizim ölkələrimiz bu istiqamətdə xeyli iş görmüşlər. Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri formatında ekspert qrupları böyük iş aparmışlar. Xarici işlər nazirləri hökumət və dövlət başçıları səviyyəsində ikitərəfli əsasda bir çox görüşlər keçirmişlər. Hesab edirəm ki, Xəzər dənizinin hüquqi statusu kimi mühüm məsələnin müzakirəsi və bu barədə qərar qəbul olunması üçün yaxşı təcrübə toplanmış və lazımi zəmin yaradılmışdır (6, 29-31).

Bütün bunlar Xəzərin statusu və sektoral bölgü probleminin həlli istiqamətində Azərbaycanın əhatəli şəkildə apardığı xarici siyasətdə uğurlu diplomatik fəaliyyət kimi qiymətləndirilə bilər. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dünyanın bütün ölkələrindəki görüşlərində Xəzərdəki əməkdaşlığın prinsiplərini müəyyənləşdirmək yolunda atılmış addımları təhlil edərək, Azərbaycanın həmişə beynəlxalq normalara, tarixi təcrübəyə

əsaslanan mövqeyinin obyektivliyini diqqətə çatdırmışdır. Zirvə toplantısından sonrakı işçi qruplarının görüşlərinin əsas mahiyyəti də bu prinsiplərə əsaslanmışdır. Belə görüşlərdə razılaşdırılmamış detallar üzərindəki iş əsla prosesin ləngiməsinə gətirib çıxarsa da problemin həllində hamını qane edəcək variantın tapılması üçün müsbət hal idi. Odur ki, *Tehran* sammiti ərəfəsində «beş ölkə prezidentinin deklarasiya imzalaması statusun bütün məsələlərinin qəti həlli yolunda çox mühüm addım olacaq» deyən RF Xarici İşlər naziri S.Lavrov açıqlamasında bildirmişdi ki, Tehran sammitində Xəzərin statusu ilə bağlı razılaşdırılmamış məsələlər də müzakirə olunacaq: «Biz prezidentlərin fikir mübadiləsi aparıb qalan məsələləri ən tez bir zamanda müəyyən edə biləcəklərinə ümid bəsləyirik». Qeyd edək ki, Xəzəryanı ölkələrin dövlət başçılarının Aşqabad sammitindən sonra ikinci sammitin 2003-cü ildə Tehranda keçirmək haqqında qərar qəbul edilsə də, Sammit bir necə dəfə təxirə salınmışdır. 2007-ci il oktyabrın 16-da baş tutan Tehran sammitində Azərbaycan prezidenti İlham Əliyev dövlətimizin mövqeyini açıqlayarkən demişdir: "Rəsmi Bakı hamılıqla qəbul edilmiş beynəlxalq-hüquqi orta xətt və onun əsasında Xəzərin milli sektorlara bölünməsi prinsipindən çıxış edir və bəyan edir ki, hər dövlət öz milli sektoru üzərində müstəsna suverenliyə malikdir. Azərbaycanın xarici şirkətlərlə birgə işlənməsini nəzərdə tutduğu yataqlar dənizin ona məxsus sektorunda yerləşir" (1, 317). Beləliklə, Xəzəryanı ölkələrin dövlət başçılarının Tehranda keçirilən II sammitinin yekunu olaraq Bəyannamə imzalandı. Azərbaycan, İran, Rusiya, Qazaxıstan və Türkmənistan prezidentlərinin imzaladığı sənəd 25 bənddən ibarətdir. Bəyannamədə aşağıdakı məsələlər öz əksini tapmışdır:

1. Tərəflər Xəzər regionunu sabitlik və sülh regionu, iqtisadi inkişaf, sahil ölkələri arasında beynəlxalq hüququn təsbit olunduğu və rifah bölgəsinə çevrilməsinə çalışacaqlar. Onlar ikitərəfli və çoxtərəfli əlaqələr çərçivəsində siyasi, diplomatik, ticari, iqtisadi, elmi, texniki, mədəni, ictimai və başqa sahələrdə əməkdaşlıq etməkdə qərarlıdırlar.

2. Tərəflər Xəzəryanı ölkə başçılarının görüşlərinin tərəflərin razılığı ilə davamlı keçirilməsini, sammitlərarası dövrdə XİN başçılarının, həmçinin, tərəflərin səlahiyyətli ekspertlərinin Xəzər dənizi ilə bağlı bütün məsələlərin araşdırılması üçün görüşlərini dəstəkləyirlər.

3. Tərəflər Xəzərdə olan resurslardan istifadə üçün çalışacaq, onun inkişaf etdirilmə qabiliyyətini nəzərə alaraq, iqtisadi sahədə, xüsusilə enerji və yükdaşıma sahələrində bir-biriləri ilə əməkdaşlığı və danışıqları genişləndirəcəklər.

4. Tərəflər regionda daşınmaların səmərəli istifadəsi üçün beynəlxalq daşınmalar dəhlizi yaratmaqla bir-birlərinə kömək edəcəklər.

5. Tərəflər bildirirlər ki, Xəzər dənizi və onun resursları ilə əlaqədar ancaq sahilyanı ölkələr hüquqa sahibdirlər.

6. Tərəflər bildirirlər ki, Xəzərin tam hüquqi statusu "Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya" imzalandıqdan sonra qüvvəyə minəcək.

7. Tərəflər Xəzərin yeni hüquqi statusunun təyin olunmasına qədər

gəmilərin gediş-gəlişi, balıqçılıq və gəmiçiliyin istifadəsinə razıdırlar. Bu o halda həyata keçirilə bilər ki, gəmilər Xəzər sahili ölkələrin bayrağı altında hərəkət etsin.

8. Tərəflər bildirirlər ki, Xəzərin tam hüquqi statusunun təsdiq olunması və bunun üçün dənizin hüquqi status konvensiyasının tez bir müddətdə bağlanması ən mühüm vəzifədir. Bu konvensiya Xəzər dənizinin hüquqi statusunun əsas sənədi kimi sahilyanı ölkələrin səlahiyyət məsələlərini o ölkələrin hüququna hörmət bəsləyərək müəyyən etməli, ekoloji qaydalar burada əks olunmalıdır. Təbii mənbələrdən ağıllı istifadə edilməsi, o cümlədən Xəzərin canlı aləmindən, yataqlardan, gəmiçilik, eləcə də Xəzərdə fəaliyyətə aid bütün başqa məsələlər də buraya aiddir.

9. Tərəflər elan edirlər ki, Xəzər sahili ölkələrin hamısı tərəfindən dənizin yeraltı və yerüstü mənbələrinin sərhəd məsələləri haqda son razılaşma onların hakim olduqları hüququ nəzərə alaraq və bir-birlərinin qanunlarına hörmət bəsləyərək icra olunacaq.

10. Tərəflər Xəzərin su sərhədlərinin təyin olunması üçün danışıqlar davam etdirilməsi barədə razılığa gəliblər.

11. Tərəflər bugünkü və gələcək nəsil qarşısında öz məsuliyyətlərini başa düşərək, Xəzəri qorumaq, onun ekoloji problemlərinin həllini bir-biriləri ilə əməkdaşlıq çərçivəsində həll etməkdə, o cümlədən ekoloji qorunma üçün milli fəaliyyətlərdə, ekoloji qorunmada əməkdaşlıq nizamını yaratmaqda, bioloji mühiti qorumaqda, canlıların yetişdirilməsində və qorunmasında təkid edirlər. Tərəflər bildirirlər ki, Xəzərin ekoloji vəziyyəti kürünün və dənizin ekoloji vəziyyətini nəzərə alaraq, onun pis nəticələnməməsi üçün tez bir zamanda əməkdaşlıq etsinlər. Bu məqsədlə tərəflər Xəzərin hüquqi statusu konvensiyası əsasında lazımi hüquqi müqavilə əsasının yaradılması üçün regionda əməkdaşlığı davam etdirəcəklər. Tərəflər 2003-cü ilin noyabrında Tehranda imzalanan Xəzərin ekologiyasına aid olan sənədin icrasına razılıqlarını bildiriblər. Tərəflər eləcə də konvensiyanın əsas müddəalarının tamamlanmasının lazımlılığını vurğulayıb, konvensiyanın daimi katibliyinin yaradılmasını xatırladırlar.

12. Tərəflər Xəzərin mənbələrindən faydalanmaq, bir-birlərinə və ekologiyaya dəyən ziyan müqabilində sahilyanı ölkələrin məsuliyyət daşıdıqlarını təsdiq edirlər.

13. Tərəflər bildirirlər ki, Xəzər ancaq sülh məqsədilə istifadə olunmalıdır və dənizə aid bütün məsələlər Xəzəryanı ölkələr tərəfindən sülh yolu ilə həll olunacaq. Tərəflər qarşılıqlı inam yaratmaq və möhkəmləndirmək üçün hövzənin təhlükəsizliyini və sabitliyini təmin etmək, eləcə də qarşılıqlı əlaqələrdə hərbi qüvvələrdən istifadə etməməyə çalışacaqlar.

14. Tərəflər təsdiq edirlər ki, onların silahlı qüvvələri hücum məqsədilə qarşı tərəf üçün istifadə olunmayacaq.

15. Tərəflər başqa ölkələrə öz ərazilərindən sahilyanı dövlətə qarşı hərbi əməliyyatlar aparılmasına imkan verməyəcəklər.

16. Tərəflər Xəzərin hüquqi statusu haqda müzakirələrin qarşılıqlı hör-

mət və anlaşma əsasında, beynəlxalq hüquq çərçivəsində davam etdirilməsini məqsədəuyğun hesab ediblər.

17. Tərəflər Xəzər regionunda sülh və əmin-amanlığın əhəmiyyətini nəzərə alaraq, bütün məsələlərin araşdırılması istiqamətində müzakirələrin davam etdirilməsinin zəruriliyini vurğulayıblar.

18. Tərəflər iqtisadi, siyasi, hüquqi sahələrdə bir neçə qütblü kamil və adil beynəlxalq sistemin yaradılması məqsədilə əməkdaşlığa çalışacaqlar.

19. Tərəflər "Nüvə silahlarının yaradılması və çoxaldılması müqaviləsi"ni beynəlxalq sülhün və əmin-amanlığın ən mühüm əsaslarından hesab edib, bu müqavilənin gələcəkdə də icrasını istəyirlər. Tərəflər, eləcə də, "Nüvə silahlarının yaradılması və çoxaldılması müqaviləsi"nə üzv olan ölkələrin nüvə enerjisindən sülh məqsədləri ilə istifadə, istehsal və tədqiqat aparmasını ayrı-seçkilik olmadan bu müqavilə çərçivəsində təsdiq etdilər.

20. Tərəflər hər bir ölkənin beynəlxalq hüquq normaları çərçivəsində inkişaf haqqının olmasını təsdiq edərək, sahilyanı ölkələrin mədəni, ictimai və tarixi dəyərlərini nəzərə alaraq, bir-birlərinin daxili işlərinə qarışmasını düzgün hesab etmirlər.

21. Tərəflər inanırlar ki, regionda sülhün və təhlükəsizliyin yaradılmasında əsas şərtlərdən biri kimi BMT-nin müvafiq konvensiyasına uyğun addımlar atılması məqsədəuyğundur.

22. Tərəflər beynəlxalq terrorizmi, separatizmi, narkotik, psixotrop maddələrin qanunsuz dövriyyəsi, insan alveri və silah satışı kimi qeyri-qanuni işlərin həyata keçirilməsini dünyaya təhdid hesab edirlər.

23. Tərəflər beynəlxalq terrorizmə, separatizm, narkotik, psixotrop maddələrin qanunsuz dövriyyəsinin, insan alveri və silah satışı kimi qeyri-qanuni işlərin qarşısının alınmasında BMT çərçivəsində və beynəlxalq hüquqa riayət edərək, öz ikitərəfli və çoxtərəfli əməkdaşlıqlarını təsdiq edirlər.

24. Tərəflər Tehranda keçirilən zirvə görüşünün nəticələrini alqışlayırlar. Sahilyanı ölkələr arasında əməkdaşlığı genişlənməsində hərtərəfli köməklik göstərəcəklərini bildirirlər.

25. Xəzəryanı ölkələrin prezidentlərinin növbəti iclası 2008-ci ilin oktyabrında Bakıda keçiriləcək (9).

Bununla da, dövlətlərin səlahiyyətli nümayəndələrinin Xəzər dənizinin hüququ statusunun müəyyənləşdirilməsinə imkan verəcək Konvensiyanın imzalanması bu sammitdə də baş tutmamışdır. Sammitdən sonra məsələ ilə bağlı Tehranda keçirilən konfransda işçi qruplarının əvvəllər də əsas mübahisə hədəfi olan problemlərin aradan qaldırılmasında ortaq məxrəcə gələ bilməmələri əsas səbəb idi. Tehran konfransında Azərbaycanı təmsil edən xarici işlər nazirinin müavini, prezidentin Xəzərin statusunun müəyyənləşdirilməsi üzrə səlahiyyətli nümayəndəsi, işçi qrupun sədri Xələf Xələfov göstərirdi ki, "Tehranda statusla bağlı problemin aradan qaldırılmasına mane olan faktorlar əvvəlki kimi həll edilməmiş qalıb". Biz Tehranda statusun müəyyənləşdirilməsinə mane olan amilləri yenidən nəzərdən keçirdik və bunların aradan qaldırıl-

ması yollarını tapmağa çalışdıq. Ancaq müzakirələr zamanı ortaq məxrəcə gələ bilmədik". Tehran sammitinin əsas məqsədi Xəzərin hüquqi statusuna dair konvensiya layihəsinin müzakirəsi olmuşdur. Azərbaycan beynəlxalq hüquq normalarına istinad etmiş, və bunun reallığı əks etdirdiyini göstərmişdir. Bu baxımdan da mövcud reallığı nəzərə almadan və beynəlxalq hüquq normalarına istinad etmədən status məsələsində ortaq məxrəcə gəlmək çətin idi. Bu normalar isə təəssüf ki, hamı tərəfindən eyni qəbul edilmirdi. Lakin Xəzərin hüquqi statusunun müəyyən edilməsi üçün imkanlar və perspektivlər böyük idi. Tehranda Xəzərin ekoloji problemlərinin həlli məsələsində də irəliləyiş əldə edilmiş və bununla bağlı protokol imzalanmışdır. Odur ki, Tehranda əsas müzakirə obyekti olan məsələlərlə bağlı ortaq məxrəcin tapılmaması Xəzəryanı ölkə başçılarının növbəti sammitinin keçirilməsi barədə razılığın əldə edilməsinə imkan verməmiş, növbəti belə görüş qeyri-müəyyən tarixə qədər təxirə salınmışdır. Ancaq işçi qrupunun Tehran konfransında tərəflər Xəzərin statusunun müəyyən edilməsi ilə bağlı növbəti danışıqların həmin ilin may ayında Bakıda keçirilməsi barədə razılığa gəlmişdilər (9).

Ümumiyyətlə, Xəzərin statusu haqqında belə gərgin siyasi-diplomatik danışıqların mahiyyətindəki qeyri-müəyyənlik əvvəllər Xəzərdə nüfuz bölgüsünü özündə əks etdirirdisə, indi dövlətlərin milli maraqları və bu maraqlarda beynəlxalq layihələrin və proseslərin yaxın iştirakçısı statusunu qazanmaq cəhdi ilə bilavasitə bağlı idi. Lakin bir tarixi həqiqət mövcuddur ki, Xəzəryanı bölgə ilə bağlı bütün siyasi-iqtisadi proseslər dünyada yalnız Azərbaycanın irəli sürdüyü strateji xətlə müəyyənləşdirilirdi. Xəzərin statusunda isə vahid qərarın qəbul olunması fikrimizcə regional dövlətlərin bütün proseslərə fəal qoşulması üçün vacib idi. Artıq bu hövzədə hər bir dövlətin nüfuz imkanları əslində müəyyənləşdirilmişdir. Prosesə əsassız maneələr törətmək cəhdləri isə özünü doğrultmamışdır. Bu istiqamətdə yekdil qərar qəbul etmək üçün nəhayət, Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının üçüncü sammiti 18 noyabr 2010-cu ildə baş tutdu. Görüşdə Xəzər dənizinin yeni hüquqi statusunun müəyyənləşdirilməsi, ekologiya, o cümlədən, transxəzər boru kəmərlərinin çəkilməsi, eləcə də iqtisadi əməkdaşlıq məsələlərinin müzakirə edilməsi qarşıya qoyulmuşdur. Sammit ərəfəsində Rusiya prezidentinin köməkçisi Sergey Prixodko qeyd edirdi ki, "Xəzər beşliyi"nin bu görüşü regional əməkdaşlıqda əsas məsələlərlə bağlı danışıqlara əhəmiyyətli impuls verməlidir. Bu, ilk növbədə, Xəzərin yeni hüquqi statusu, eləcə də neft-qaz yataqlarının işlənməsi və karbohidrogen ehtiyatlarının nəqli, maliyyə və sərmayə, ticarət, nəqliyyat, bioresurslardan istifadə, ətraf mühitin mühafizəsi kimi sahələrdə daha sıx əməkdaşlıq məsələləri də daxildir. Daha sonra bildirilirdi ki, sammitin gündəliyinə Xəzərin hüquqi statusu ilə bağlı danışıqların hazırkı vəziyyəti, iqtisadiyyat, nəqliyyat, kommunikasiya sahəsində əməkdaşlıq məsələləri daxildir: "Biz, ilk növbədə, balıqçılıq, gəmiçilik, Xəzər, Azov və Qara dəniz hövzələrinin su nəqliyyatı ilə birləşməsi və Xəzər iqtisadi əməkdaşlığı təşkilatlarının fəaliyyətini nəzərdə tuturuq. Xəzər İqtisadi Əməkdaşlıq Təşkilatının (XİƏT)

yaradılması ilə bağlı Rusiya tərəfinin təşəbbüsü ilə bağlı fəal irəliləyişə nail olmaq niyyətindəyik". Doğrudur, sammitin əsas məqsədi Xəzər dənizinin hüquqi statusu ilə bağlı konvensiya üzərində iş olsa da, bu görüşdə işin yekunlaşmayacağı ehtimalı var idi. Lakin bütün ölkələrə məlum idi ki, Rusiyanın yaxın qonşuları - Azərbaycan və Qazaxıstanla Xəzər dənizinin statusu sahəsində, böyük mənada, heç bir problem yoxdur. Ölkələr akvatoriyanın delimitasiyasını həyata keçiriliblər, ətraf mühitin mühafizəsi sahəsində uğurlu əməkdaşlıq edirlər. Lakin İran və Türkmənistanın fərqli mövqeləri bu işin ləngiməsinin əsas səbəbi idi.

Bu ərəfədə noyabrın 18-də Bakıda keçiriləcək Xəzəryanı ölkələrin dövlət başçılarının sammiti Türkmənistan hökuməti tərəfindən belə xarakterizə edilirdi: "Xəzər probleminin aktual məsələləri üzrə konsensusa nail olmaq üçün danışıqlar prosesinə sammit dinamika verməli, məqsədi Xəzərin həmişəlik sülh, dostluq, və həmrəylik dənizi statusunun möhkəmləndirilməsi olan əməkdaşlığın optimal formatının hazırlanmasına əməli addım olmalıdır", Bu məqsədlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov sammitin işində iştirak etmək və bir sıra ikitərəfli görüşlər keçirmək üçün Bakıya səfər etdi. Rəsmi məlumatlarda qeyd edilirdi ki, forumun gündəliyi çərçivəsində ilk növbədə Xəzər dənizinin hüquqi statusunun hazırlanması, regional əməkdaşlığın inkişafı, xüsusən Xəzərdə təhlükəsizliyin təmini ilə bağlı kompleks aktual məsələlərdə Türkmənistan dövləti fəal mövqe nümayiş etdirmişdir. Bu barədə Türkmənistan rəsmisi demişdir: "Bərabərhüquqlu qarşılıqlı tərəfdaşlıq, milli və ümumi maraqlar balansının gözlənilməsi prinsiplərinə əsaslanan sarsılmaz xarici siyasət kursunu həyata keçirməklə, müstəqil Türkmənistan sülhün möhkəmləndirilməsi və həmrəylik naminə konstruktiv dialoqa, Xəzər zonasında həm ikitərəfli, həm də çoxtərəfli formatda effektiv əməkdaşlığın fəallaşmasına tərəfdardır". Qeyd edək ki, Türkmənistan 2002-ci ilin aprelində Aşqabadda baş tutan ilk Xəzəryanı sammitin keçirilməsinin təşəbbüskarı olub. 2007-ci ildə Tehranda Xəzəryanı ölkə başçılarının ikinci sammitində Xəzər dənizinin hüquqi statusu haqqında konvensiya layihəsinin yekun razılaşdırılması və qəbulu üçün gələcək işin konkret istiqamətləri müəyyən olunmasında təşəbbüskarlıq göstərib. Bu sammitin yekunları kimi dövlət başçıları imzaladıqları "Birgə Bəyannamədə" Xəzərin hüququ statusuna dair Konvensiya üzərində işi davam etdirmək niyyətini bir daha təsdiqlədilər. APA-nın "RİA Novosti"yə istinadən yaydığı məlumata görə, Birgə Bəyannamədə deyilir: "Tərəflər sahilyanı ölkələrin Xəzər dənizinə və onun resurslarına münasibətdə suveren hüquqlarını tanıdıqlarını bəyan edirlər. Onlar Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya üzərində işi başa çatdırmaq niyyətlərini təsdiqləyirlər. Bu Konvensiya sahilyanı ölkələrin Xəzər dənizində fəaliyyətini tənzimləyəcək baza sənədi olacaq".

Sammitin yekunlarına həsr olunmuş brifinqdə Rusiya prezidenti Dmitri Medvedyev bildirib ki, Konvensiya üzərində işi bir il ərzində başa çatdırmaq mümkündür (7). Qeyd etdiyimiz kimi, Bakıda Xəzər sammitinin keçirilməsinə hazırlıqlar çoxdan davam edirdi və ekspertlər, xarici işlər nazirlərinin müavin-

ləri səviyyəsində dəfələrlə məsləhətləşmələr keçirilmişdi. 2002-ci ildə Aşqabadda keçirilən ilk sammitdə dənizin demarkasiyası, hüquqi statusu və hüquqi rejiminə dair heç bir sənəd qəbul edilməmişdi. İkinci sammit isə 2007-ci ildə Tehranda olmuş konkret razılaşma əldə olunmamışdır. Lakin yekunda Birgə Bəyannamə qəbul edilmişdir. Bu bəyannamədə status məsələsi əksini tapmasa da Xəzəryanı ölkələrin dəniz ehtiyatlarının səmərəli istismarı və iqtisadi əməkdaşlığın genişlənməsi, enerji və nəqliyyat sahəsində əməkdaşlığı elan edilmişdi. Bakı sammitində isə status məsələsinin həllini tapması ehtimalı yox idi, bununla belə, sammit region ölkələrinin bir araya gəlməsi və təkcə Xəzərin bölüşdürülməsi məsələsi ilə kifayətlənməyib dənizdə təhlükəsizlik, beştərəfli iqtisadi əməkdaşlıq formulu, ekologiyanın və bioloji ehtiyatların qorunması kimi hamını maraqlandıran mövzuları müzakirə etmək baxımından kifayət qədər önəmli hadisə hesab olunurdu. 2010-cu il noyabrın 17-də sammitdə iştirak etmək üçün Bakıya ən tez İran prezidenti Mahmud Əhmədinejad gəlmiş, Azərbaycanla əlaqələrini genişləndirməyə xüsusi səy göstərmiş, noyabrın 17-də Azərbaycan Prezidenti İlham Əliyevlə ikitərəfli, habelə nümayəndə heyətlərinin iştirakı ilə danışıqlar aparmışdır. Görüşün nəticəsi olaraq tərəflər birgə bəyannamə imzalamış, ticarət dövriyyəsinin həcmini artırmaq, enerji sahəsində əməkdaşlığı genişləndirmək barədə isə vədlər vermişlər. Digər ölkələrin dövlət başçıları da prezident İlham Əliyevlə ikitərəfli görüşlər keçirmişlər. İkitərəfli görüşləri başa vuran prezidentlər daha sonra əsas məsələni – Xəzərin bölüşdürülməsini müzakirə etmək üçün bir yerə toplaşmışlar. Əvvəlcədən məlum idi ki, prezidentlərə imzalamaq üçün iki sənəd təqdim olunub: birgə bəyannamə və Xəzərdə təhlükəsizliyə dair saziş. Qeyd edək ki, Rusiya prezidentinin İlham Əliyev ilə ikitərəfli danışıqlarının gündəmi Kreml tərəfindən bir gün əvvəldən açıqlanmışdı və orada deyilirdi ki, tərəflər qarşılıqlı maraq doğuran digər məsələlərlə bərabər Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını da müzakirə edəcəklər. “İnterfaks-Azərbaycan” agentliyinin xəbərinə görə, görüşdə Azərbaycan prezidenti Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlarda fəal iştirakına görə rusiyalı həmkarına minnətdarlığını bildirmiş və demişdir. “Bizim görüşümüz mütəmadi mahiyyət daşıyır və biz münasibətlərimizi detallı şəkildə müzakirə etmək imkanı əldə edirik. Mən sizə bir daha Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində fəal iştirakınıza görə təşəkkür etmək istəyirəm” (3). Qeyd edək ki, Bakı sammiti ənənəvi olaraq Xəzər məsələsində, xüsusən dənizdə təhlükəsizliyin təmin edilməsi və ABŞ-ın bu prosesdən kənarlaşdırılmasında ortaq mövqedən çıxış edən Rusiya və İran arasında münasibətlərin korlandığı bir vaxta təsadüf edib. Rusiya İrana “S-300" raketlərini satmaqdan imtina edib, BMT Təhlükəsizlik Şurasında bu ölkəyə qarşı sanksiyaları dəstəkləyib və nüvə məsələsində Tehranın sıxılmasında iştirakçıdır. Bu baxımdan Xəzərin 5 bərabər hissəyə bölünməli olduğu barədə ənənəvi mövqeyini Bakı sammiti ərəfəsində də təsdiqləyən İranın bu toplantıda təklənmə ehtimalı var idi. Bir gün əvvəl nüvə məsələsini müzakirə etmək üçün Rusiya və İran prezidentləri görüşmüşlər.

Digər tərəfdən, əvvəllər Xəzərin bölgüsünə dair Bakı ilə kəskin mübahisəyə girən Türkmənistan da indi gərginliyi azaltmağa meyl edir və status məsələsinə dair mübahisələri bir kənara qoyaraq Azərbaycanla münasibətləri yaxşılaşdırmaqda maraqlıdır. Xəzər sammiti beynəlxalq ekspertlərin də diqqət mərkəzində idi. Britaniyanın "Chatham House" institutunun eksperti Yuri Fyodorov "Deutsche Welle" radiosuna müsahibəsində sammiti şərh edərkən demişdir. ki, ona müxtəlif paytaxtlardan daxil olan məlumatlar iki məqama işarə edir: Azərbaycan ev sahibi olaraq çalışır ki, sammitin Xəzərdə təhlükəsizliyin təmin edilməsi baxımından mühüm hadisə olduğunu göstərsin. Rusiyadan gələn xəbərlər isə sammitdə hansısa ümumi məzmunlu bəyannamənin imzalanmasından o yana heç nə baş verməyəcəyini göstərir. Ekspert Y.Fyodrovun şərhinə görə "Xəzərin dibinin bölünməsini Azərbaycan, Rusiya və Qazaxıstan öz aralarında çoxdan həll ediblər. Ancaq Azərbaycan, İran və Türkmənistan heç cür bu məsələdə razılaşa bilmir. Üstəlik İran dənizin 20 faizinə iddia edir ki, bu da digər sahilyanı ölkələrdən heç birini qane edə bilməz. Hazırda tərəflər arasında ancaq bir məsələdə qismən də olsa ümumi anlaşma var. Bu, Xəzərin ekologiyası məsələsidir". Doğrudur, tərəflər dənizin ekologiyasının mühafizəsinə dair memorandum imzalayıblar, onlardan heç biri dənizdə ekologiyanın korlanmasında maraqlı deyil. Ancaq bu da nəzəri olaraq belədir. Praktikada heç də hamı dənizin təmizlənməsinə, nəsli tükənən nərə balıqlarının mühafizəsinə pul xərcləmək istəmir". Dövlət başçılarının zirvə görüşündə açılış nitqi söyləyən prezident İlham Əliyev Xəzərin hüquqi statusunun müəyyən olunmasında konsensusa gəlməyin vacibliyini qeyd edirdi. Prezident öz nitqində qeyd edirdi ki, "Azərbaycan, Qazaxıstan və Rusiya Xəzərin bölünməsində razılığa gəliblər". "Bu gün Xəzəri dostluq dənizinə çevirmək üçün beş sahilyanı ölkənin iqtisadi əməkdaşlığını gücləndirmək lazımdır" (2). Rusiya prezidenti D.Medvedev isə öz çıxışında "Xəzəryanı ölkələr problemin həlli üçün qarşılıqlı səyləri zəiflətməməlidir. Əks halda bu məsələ ilə regiona dəxli olmayan başqa dövlətlər məşğul olacaq. Biz sizinlə bir məsələdə eyni mövqedəyik ki, bölgədəki situasiyaya görə cavabdeh məhz bizik, başqa heç kim yox. Məhz buna görə bu sammitdə Xəzər bölgəsində təhlükəsizliyin təmin edilməsinin bölgə ölkələrinin məsələsi olduğu vurğulanır. Əgər hansısa məqamda biz qarşılıqlı səyləri zəiflətsək, sayıqlığı əldən versək o zaman şübhəniz olmasın ki, bizim məsələlərimizlə Xəzərə heç bir dəxli olmayan başqa dövlətlər məşğul olacaq. Hansı ki, bu dövlətlər öz iqtisadi və siyasi maraqları naminə bu regionda peyda olmağa çalışırlar". Hadisələrin gedişatı göstərirdi ki, Xəzəryanı ölkələr ayrı-ayrı sahələrdə, o cümlədən regional təhlükəsizliyin təmin edilməsində daha effektiv işləmək üçün yeni formatlar tapmalıdır. Buna Bakıda imzalanan "Xəzərdə təhlükəsizliyin təmin edilməsində əməkdaşlıq" adlı saziş əsas ola bilərdi. Çünki bu sənədin imzalanması mühüm hadisə idi və Xəzərdə meydana çıxan təhlükə mənbələri ilə mübarizədə qarşılıqlı əməkdaşlıq imkanlarını genişləndirirdi. Rusiya prezidentinin "Xəzərə dəxli olmayan ölkələr" dedikdə isə məhz ABŞ-ı nəzərdə tutduğu tamamilə aydındır. Çünki

məhz ABŞ 2000-ci illərin əvvəllərindən başlayaraq Xəzərdə təhlükəsizlik məsələləri ilə məşğul olmağa başlayıb, bu istiqamətdə Qazaxıstan və Azərbaycanla bir sıra layihələr həyata keçirib, onlara hərbi yardımlar göstərib. Lakin indi keçmiş sovet respublikalarında itirdiyi mövqeləri bir-bir geri qaytaran Rusiya ABŞ-ı Xəzərdə təhlükəsizlik məsələsindən kənarlaşdırmağın əsasını qoyur və Bakı sammitində prezidentlərin təhlükəsizliyə dair imzaladığı sənəd də məhz buna xidmət edirdi. Qeyd etmək lazımdır ki, bu məsələdə İran da Rusiya ilə eyni fikirdə idi. ABŞ-ın Xəzərdə iştirakı uzun müddətdir Tehranı narahat edirdi və neft layihələrindən sonra Birləşmiş Ştatların təhlükəsizlik məsələlərinə də cəlb olunması qonşu ölkədə narahatlığı daha da artırmışdı. Qərb mənbələri dəfələrlə belə məlumatlar yaymışdı ki, Xəzərdən İrana qarşı mümkün hərbi əməliyyatlarda istifadə oluna bilər. Beləliklə, Bakı Sammitində Xəzərin statusunu müəyyənləşdirmək mümkün olmamış, ancaq Rusiyanın strateji əhəmiyyətli Xəzər bölgəsində təhlükəsizlik məsələsini öz nəzarəti altına almasına növbəti siyasi gediş özünü göstərmişdir. Hadisələrin xarakteri isə onu göstərirdi ki, ümumiyyətlə, "status" anlayışının ətrafında dolanan belə siyasi maraqlar və irəli sürülən iddialar prosesin uzun sürən müzakirə mövzusu olmasını şərtləndirmişdir. Elə "bu faktlar da məsələnin həllinə maneə olan ən başlıca amildir" desək səhv etmərik. Lakin ortada müzakirə olunan mövcud konsepsiyanın isə, fikrimizcə, alternativi yoxdur.

## ƏDƏBİYYAT


1. Əliyev İ. Azərbaycanıma inanıram. Bakı: Azərnəşr, 2007, 456 s.
2. Əliyev M. Rusiya Xəzərin hüquqi statusuna dair konvensiya üzərində işlərin sürətlənməsinin tərəfdarıdır. "Trend" agentliyinin 26 aprel 2007-ci il tarixli məlumatı.
3. Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının Zirvə görüşü keçirilmişdir. "Xalq qəzeti", 2010-cu il 20 noyabr, №253.
4. Лунейев В. «Государство и право» на тему «Терроризм: психологические и правовые // Государство и право // Жур. «Круглый стол», М., 2005, №4, с. 9.
5. Xəzərin statusuna dair Aşqabad sammiti keçirilmişdir. «Respublika qəzeti» 2003, 25 aprel, № 76.
6. Xəzər dənizinin hüquqi statusu üzrə Azərbaycan Respublikası və İran İslam Respublikası arasında ikitərəfli danışıqların davam etdirilməsi üçün Azərbaycan Respublikasının nümayəndə heyətinin 15 iyul 2003-cü il tarixdə Tehran şəhərinə səfəri. // "Diplomatiya aləmi" jurnalı 2003, iyul-sentyabr, № 4.
7. Xəzər qonşuları birləşdirdi. Şərq qəzeti ,19 noyabr 2010, №203.
8. www. deyerler. org.
9. www. azeroo. com.

## СТАТУС КАСПИЯ В ДИСКУССИИ НА САММИТЕ ВСТРЕЧ ГОСУДАРСТВ

**С.С.ГАСАНОВ**

**РЕЗЮМЕ**

После восстановления независимости в Азербайджане статус Каспия вышел на передний план в приоритете национальных интересов государственной безопасности. Анализу решения данной проблемы в процессе ее решения на саммитах в Ашгабаде Тегеран-Баку посвящена предлагаемая статья. Отражается теоретическое отношение к проблемам уравновешенности интересов в регионе.

**Ключевые слова:** энергия, статус, политика, интересы, сотрудничество, безопасность, стратегия.

## THE STATUS OF THE CASPIAN AT THE DISCUSSION OF SUMMIT MEETINGS

**S.S.HASANOV**

**SUMMARY**

After the restoration of independence in Azerbaijan, the problem of the Caspian sea became the foreground priority of the security. The present article is dedicated to the analysis of solving this problem in the process of its settlement at the summits in Ashgabad-Teheran-Baku. Theoretical attitudes to the problems of balance of interests in the region are analyzed.

**Key words:** energy, policy, status, interests, cooperation, security, strategy.